# Avropa Parlamentinin qərəz dolu Cənubi Qafqaz siyasəti

## Təşkilat indi də Gürcüstanın daxili işlərinə qarışır və legitim hakimiyyətə təzyiq göstərməyə çalışır



"Avropa Parlamenti Cənubi Qafqaza olan qərəzindən əl çəkmir və müxtəlif yollarla bu regionda yerləşən ölkələrə təzyiq göstərməyə çalışır. Gürcüstana qarşı qəbul edilmiş son qətnamə də Avropa Parlamentinin öz işi ilə məşğul olmaq istəmədiyini və zamanını Gürcüstanda siyasi sabitliyin yenidən pozulmasına dəstək verməyə sərf etdiyini göstərir".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, avropalı parlamentarilər Gürcüstanın legitim hakimiyyətini tanımadıqlarını və keçmiş prezident Salome Zurabişvilini prezident kimi qəbul etdiklərini bildirərək növbəti iclaslara onu dəvət etmək istəyirlər: "Ümumiyyətlə, Avropa Parlamenti Gürcüstanın daxili işlərinə qarışır və legitim hakimiyyətə təzyiq göstərməklə özlərinin təsiri altına salınması istiqamətində hərəkətlərə davam edirlər".

Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Avropa Parlamentinin qətnaməsinə münasibət bildirdiyini xatırladan siyasətçi deyib ki, o, bunun saman çöpü olduğunu və onlara 9 illik ağır rejimi xatırladır. "O dövrdə ölkəni idarə edən qüvvələr bu gün Avropa Parlamentində belə qətnamələr qəbul etdirirlər. Həm də bu, çox təəssüf doğuran hadisədir və Avropa bürokratiyasını təsdiqləyən haldır. Əslində, bununla Avropa öz nüfuzuna ciddi zərbə vurur. Görünür ki, Avropa Parlamenti Cənubi Qafqazda sabitliyi pozmaqda maraqlıdır. Azərbaycana qarşı da eyni münasibət sərgiləyərək ölkəmizin AŞPA-da iştirakını dayandırmaqla bağlı qətnamə qəbul edilmişdir. Azərbaycan nümayəndə heyəti isə onların qərarını gözləmədən qeyri-müəyyən müddətə fəaliyyətini dayandırdığını bəyan edərək AŞPA-nı tərk etdiyini bildirmişdi. Bu il də nümayəndə heyətimiz etiraz əlaməti olaraq bu qurumun iclaslarına getmədi və avropalı deputatların riyakar qərarlarına öz etirazını bildirməkdə davam etdi. Eyni məsələni Gürcüstan hakimiyyətinə qarşı da təkrarlayırlar. Təbii ki, bu məsələnin kökündə yenə eyni məqsəd dayanır: "Demokratiya pərdəsi altında öz nəzarətləri altındakı şəxsləri meydanlara çıxartmaq və etiraz aksiyalarını genişləndirməklə legitim dövlət quruluşunu devirməkdir", - deyə o əlavə edib.

A.Badamov qeyd edib ki, AP Gürcüstanda yeni parlament seçkilərinin keçirilməsini istəyir. Amma belə bir tələb suveren ölkənin daxili işlərinə qarışmaqdır. Parlament seçkiləri avropalı parlamentarilərin çağırışları ilə yox, ancaq ölkənin Konstitusiyasında göstərilən hallarda çağırıla bilər. Bu baxımdan Avropa Parlamentinin Gürcüstan hakimiyyətindən tələbi legitim hakimiyyəti uzaqlaşdırmaq və özlərinin istədikləri insanların masada oturdulması məqsədi daşıyır. Təbii ki, Gürcüstanda fəaliyyət göstərən hakimiyyət xalq tərəfindən seçilib. Avropa Parlamentinin çağırışları sadəcə onların çirkin niyyətlərinin ifadəsidir. Düzdür, Ermənistanda idarəçilik Qərbin əlinə verilib və onların çətiri altına keçib. Bu da Ermənistanın müstəqilliyini əlindən verməsi və uçuruma yuvarlanmasıdır. Azərbaycan və Gürcüstan isə özlərinin milli dövlətlərini qorumağa qadirdirlər və Qərbin istəkləri ölkələrimizdə heç vaxt reallaşmayacaq. Qoy Avropa Parlamenti öz qətnamələrini qəbul etsin və içindəki riyakarlıqları üzə çıxarsın. Amma zaman gələcək ki, onların bizə böyük ehtiyacı yaranacaq.

Deputat vurğulayıb ki, bu gün Avropa Parlamentinin özü deqradasiya olunur. Hətta ABŞ-də Trampın hakimiyyətə gəlməsi Avropa üçün ən pis xəbər olub. Bu gün Avropanın kifayət qədər həll olunmalı problemləri var. Yaxşı olar ki, avropalı parlamentarilər Gürcüstan və Azərbaycanla deyil, özlərinin daxili problemləri ilə məşğul olsunlar.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 19 fevral (№37).- S.14.